*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 3 avqust 2016-cı il № 59 (2074) Qiyməti 25 qəpik

# Sən Azərbaycan əsgərisən!

***Vətən təkcə sərhədlərlə əhatələnmiş torpaq sahəsi deyil. Bu torpaqda hər daşa, hər qayaya, hər çiçəyə, hər bulağa, hər çeşməyə qədərsiz mehr-ülfət olmalıdır. Torpaq onda vətənləşir.***

Ali Baş Komandan İlham ƏLİYEV:

*Aprel döyüşləri onu da göstərdi ki, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır və istənilən vəzifəni icra edə bilər.*



Vətən kəlməsinin yozumu çoxdur. Onlardan biri və başlıcası əsgər ürəyidi. Vətən - əsgər ürəyidi, Vətən əsgər ürəyində yaşadılır, bu səbəbdən müqəddəsdi Vətən. Vətən ana təyiniylə qoşa işlədilir. Buna görə onu həmişə müqəddəslik mərtəbəsində yaşadırıq. Vətən həmişə göz bəbəyi kimi qorunur. Buna görə Vətəni gözümüzün nuru bilirik.

Azərbaycan əsgəri Vətəni belə sevir, belə qoruyur.

Hər qarış torpaq da Vətən kimi qorunmalıdı. Ata nəsihətiylə, ana öyüdüylə böyüyən, hər oxuduqlarından düşüncələrinə Vətən sevgisi süzülən, düşüncələri durulaşan oğulların torpağa mehri artır. Vətən belə sevilib, belə sevilir, belə seviləcək. Abbas Səhhətin bir misrası əsgərin də dilinin əzbəridi: "Vətəni sevməyən insan olmaz!..". Azərbaycan əsgərinin Vətən sevgisi həmişə ululuq mərtəbəsində olub.

Vətənin torpağıyla - dağı ilə, düzü ilə, bulağıyla, ağacıyla, bayrağıyla, Nizaminin, Füzulinin,... əsəriylə, Cavanşirin, Xətainin... qılıncının kəsəriylə,... vətənləşən Azərbaycan əsgəri torpaqlarımızın (Vətənin!) keşiyindədi. Hər əsgər sinəsini Vətənə səngər bilir. Hər əsgər üçün Vətənin müqəddəsliyi, bu müqəddəsliyin yaşarlılığı yaşam fəlsəfəsidi. Ömür deyilən zaman kəsimini Vətən üçün yaşayır Azərbaycan əsgəri...

Azərbaycan əsgəri Vətəni qoruyur.

Azərbaycan əsgəri ona tapşırılmış mövqedə sayıqlıqla dayanır. Qarşı tərəfi qədərsiz diqqətlə müşahidə edir. Müharibə şəraitindəyik. Müharibə hələ başa çatmayıb. Müharibə torpaqlarımız işğaldan azad edildində başa çatacaq. Düşmənin hər tərpənişini müşahidə eləyən, onu nəzarətdə saxlayan Azərbaycan əsgəri üçün ən böyük vəzifə torpağı qorumaqdır; Azərbaycan əsgəri torpaqlarımızı qoruyur. Gecə də, gündüz də. Yayın bürküsündə də, qışın sazağında da; səngərin gecəsi-gündüzü olmur.

Əsgər qarşı tərəfi nəzarətdə saxlayır. Hələlik nəzarətdə saxlayır. Sülh danışıqları baş tutmasa, indi nəzarətdə saxladığı ərazilərdən də keçəcək, üzü Dağlıq Qarabağa yol alacaq Azərbaycan əsgəri. Bu yol onun uğur yolu olacaq, qələbə yolu olacaq.

Azərbaycan əsgəri vətənsevərdir, cəsarətlidir, qətiyyətlidir. Yüksək döyüş və mənəvi hazırlığa malik olan əsgər Vətənin gücü deməkdir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qətiyyətlə dediyi bir fikir Azərbaycan əsgərinin qalibiyyət əsgəri olduğunu təsdiqləyir: "Aprel döyüşləri onu da göstərdi ki, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır və istənilən vəzifəni icra edə bilər." Ən başlıca vəzifəmiz isə torpaqlarımızı işğaldan azad etməkdir...

...Diqqətlə baxdığın o əraziləri biz azad edəcəyik, Azərbaycan əsgəri! O ərazilər bizim yolumuzu gözləyir. O torpaqlarda bir vaxt düşən izlərimiz yenidən dirçələcək, o izlərə sənin izlərin qarışacaq. Bundan sonra oralara yad izi düşməyəcək. Qoru Vətəni. Vətənin arzuladığı səviyyədə qoru! Vətən sənin ürəyindi, ürəyini varlığınla, ruhunla qoru!

Sən qüdrətlisən, sən cəsarətlisən, sən vətənseversən, Azərbaycan əsgəri!..

**"Azərbaycan Ordusu"**



Döyüş hazırlığının artırılması başlıca vəzifədir

2-ci səhifədə



Xalq-ordu birliyinin bariz ifadəsi

3-cü səhifədə



"Vətəni qorumaq peşəsi ən şərəfli peşədir"

6-cı səhifədə



Ordu həyatının işıqlandırılması peşəkarlıq tələb edir

7-ci səhifədə

# Cəbhəboyu zonada zabit ailələri üçün daha bir yaşayış kompleksi və yeni hərbi şəhərcik istifadəyə verilib

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, hərbi hissələrdə tikinti-quruculuq işləri davam edir.***



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, avqustun 2-də Müdafiə Nazirliyinin rəhbərliyi cəbhə bölgəsində zabit ailələri üçün daha bir yaşayış kompleksi və yeni hərbi şəhərciyin açılışında iştirak edib.

Hərbi qulluqçuların ailələri üçün nəzərdə tutulan və hər biri 3 otaqdan ibarət 48 xidməti mənzil kommunikasiya xətləri ilə tam təchiz olunub. Müasir standartlara cavab verən təmirli mənzillər mebel və digər avadanlıqlarla təmin edilib. Yaşayış kompleksinin həyətində yaşıllaşdırma və abadlıq işləri görülüb, hərbi qulluqçular və onların ailə üzvlərinin səmərəli istirahəti üçün lazımi şərait yaradılıb.



Sonra Müdafiə Nazirliyinin rəhbərliyi cəbhə bölgəsində yeni inşa edilən hərbi şəhərcikdəki obyektlərlə tanış olub.

Müdafiə naziri şəxsi heyətlə görüşdə Ali Baş Komandanın ordu quruculuğuna göstərdiyi yüksək diqqətin nəticəsi olaraq son vaxtlar döyüş və mənəvi-psixoloji hazırlığın daha da artırılması, sosial-məişət şəraitinin yaxşılaşdırılması və maddi-texniki bazanın möhkəmləndirilməsi məqsədilə görülən işləri diqqətə çatdırıb.

Dövlət rəhbərliyinin tapşırığına əsasən, isti yay günlərində şəxsi heyətin, xüsusilə də gənc əsgərlərin sağlamlığının qorunması, rahatlığı və normal istirahət şəraitinin təmin olunması məqsədilə hərbi hissələrin artıq 70 faizinin sərinləşdirici avadanlıq və vasitələrlə təchiz edildiyini bildirən Müdafiə naziri, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı nəticəsində orduya yeni silah və texnikaların alınması, yeni hərbi hissələrin açılışı, zabitlər üçün yeni xidməti və daimi mənzillərin verilməsinin döyüş hazırlığına, nizam-intizamın yüksəldilməsinə birbaşa təsir göstərən amillərdən olduğunu xüsusi qeyd edib.

Hərbi qulluqçular və ailə üzvləri yaradılan şəraitdən məmnun qaldıqlarını, göstərilən diqqət və qayğıya görə Ali Baş Komandana minnətdarlıqlarını bildiriblər.

Şəxsi heyət təntənəli marşla tribunanın önündən keçdikdən sonra Müdafiə Nazirliyinin rəhbərliyi hərbi qulluqçularla birlikdə nahar edib.

Nazir hərbi hissədə çalışan mülki işçilərlə görüşərək şəxsi heyətin təminatı ilə maraqlanıb, müvafiq göstəriş və tövsiyələrini verib.



# Döyüş hazırlığının artırılması başlıca vəzifədir

## Hərbi hissə və birləşmələrdə 2016-cı ilin yay tədris dövrü başlandı

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, Silahlı Qüvvələrimizin hərbi hissə və birləşmələrində 2016-cı ilin yay tədris dövrünün başlanması münasibəti ilə toplantılar keçirilib.*

"N" hərbi hissəsində keçirilən mərasimdə əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin abidəsi ziyarət olunub və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Polkovnik Qurban Qurbanov əsgərləri əlamətdar gün münasibəti ilə təbrik edib, onlara xoş arzularını çatdırıb. Ulu öndərin "Müstəqilliyin, suverenliyin yeganə təminatçısı yüksək hazırlıq görmüş güclü ordudur" sözlərini xatırladan zabit qarşıda duran vəzifələrdən danışıb.

O bildirib ki, bu gün qarşımızda duran əsas vəzifə ötən tədris dövründə əldə olunmuş nəticələrlə kifayətlənməmək, döyüş hazırlığımızı yay tədris dövründə daha da yüksəltmək, hərbi intizamı möhkəmləndirməkdir.

Qürurla qeyd etməyə dəyər ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə formalaşan Silahlı Qüvvələrimiz torpaqlarımızı azad etmək üçün hər zaman döyüşə hazırdır.

- Silahlı Qüvvələrin tərkib hissəsi olan hərbi hissəmizin şəxsi heyəti də yeni tədris mövsümündə döyüş qabiliyyətini daha da artırmağı qarşısına məqsəd qoyub, - deyib zabit. - Hər bir hərbi qulluqçu dərk etməlidir ki, öz vəzifə borcunu vicdanla yerinə yetirməklə, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə hərbi bilikləri dərindən yiyələnməklə, özünü torpaqlarımızın azadlığı uğrunda gedəcək döyüşlərə hazırlayır.

Sonra polkovnik-leytenant Vüqar Cəfərov general-leytenant Rövşən Əkbərovun şəxsi heyətə məktubunu oxuyub.

Yeni tədris dövrünün başlanması münasibəti ilə şəxsi heyəti təbrik edən general hərbi xidmətdə bundan sonra da onlara uğurlar arzulayıb.



Məktubda qeyd olunub ki, dövlətimizdə aparılan qətiyyətli, uğurlu daxili və xarici siyasət nəticəsində Vətənimiz tərəqqi və inkişaf yolu ilə irəliləyir. Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə xalqımızın xoş gələcəyi naminə atılan qətiyyətli addımlar sayəsində dövlətimizin mövqeyi və ordumuz gün-gündən möhkəmlənir. Ordumuzun maddi-texniki bazası artır. Buna görə də Ali Baş Komandan və Müdafiə naziri tərəfindən qarşımıza qoyulan tapşırıqları layiqincə yerinə yetirmək üçün bütün imkanlarımız var.

Həmçinin yay tədris dövründə şəxsi heyətin qarşısında duran vəzifələr məktubda öz əksini tapıb: "Əsas diqqət şəxsi heyətin hərbi biliklərə bacarıqla yiyələnməsinə, hərbi intizamın və mənəvi-psixoloji vəziyyətin yüksəldilməsinə yönəldilməlidir. Bunun üçün hər bir zabit, gizir, çavuş və əsgər təlim və tədris məşğələlərini mənimsəməli, şəxsi döyüş qabiliyyətinin artırılması üçün yüksək fədakarlıq göstərməlidir. İnanıram ki, siz əldə olunan nailiyyətləri yeni tədris dövründə də inkişaf etdirərək əsgəri borcunuzu layiqincə yerinə yetirəcək, ordumuzun şərəfini uca tutaraq işğal edilmiş Vətən torpaqlarının hər an azad edilməsi naminə döyüşlərə hazır olacaqsınız."

Yeni tədris dövrünün başlanmasına həsr olunmuş mərasim şəxsi heyətin təntənəli keçidi ilə başa çatdı.

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

# Xalq-ordu birliyinin bariz ifadəsi

## Naxçıvan Muxtar Respublikasının yüksək dağlıq və sərhəd ərazilərində etibarlı müdafiə sistemi yaradılıb

*Bu gün Naxçıvan dağlarının əzəmət və qüdrətini həm də onun zirvələrində Vətənin keşiyini çəkən Azərbaycan əsgərləri artırır. Sinəsini düşmənə sipər edən Vətən oğulları torpaqlarımızı etibarlı müdafiə edirlər. Artıq muxtar respublikanın çətin dağlıq şəraitdə yerləşən bütün hərbi hissələri yüksək maddi-texniki bazaya və döyüş qabiliyyətinə malikdir. Xalq-ordu birliyi, peşəkar və vətənpərvər şəxsi heyət bu ərazilərdə xidmətin nümunəvi təşkilinə imkan verir.*



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, avqustun 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Ordubad rayonunda sərhəd və dağlıq şəraitdə yerləşən hərbi hissələrdə xidmətin təşkili və şəxsi heyətin məişət şəraiti ilə maraqlanıb.

Əsgərləri salamlayan Ali Məclisin sədri deyib: "Bu gün siz düşmənlə sərhəddə xidməti vəzifələrinizi yerinə yetirirsiniz. Təbiət baxımından zəngin olan bu ərazilərdə kənd təsərrüfatının inkişaf etdirilməsi üçün hərtərəfli şərait vardır. Hərbi qulluqçuların xidməti vəzifələrini uğurla yerinə yetirmələrinin nəticəsidir ki, sərhədlərimiz etibarlı qorunur, insanlarımız bu ərazidə məskən salır, təsərrüfatlarını genişləndirir, rahat və təhlükəsiz yaşayırlar."

Ali Məclisin sədri xidməti vəzifələrini uğurla yerinə yetirdiklərinə görə şəxsi heyətə təşəkkür edib. Ali Məclisin sədri deyib: "Hər bir ölkədə sabitliyin və inkişafın təmin olunmasında əsas amillərdən biri də sərhədlərin etibarlı müdafiə olunmasıdır. Muxtar respublikanın bu ərazisində yerləşən kənd yaşayış məntəqələrində insanların rahat yaşaması və məskunlaşması üçün lazımi şərait yaradılıb, yeni sosial obyektlər tikilib istifadəyə verilib. Həmçinin hərbi hissə üçün də bina tikilmiş, xidmətin hərtərəfli təşkili üçün bütün şərait yaradılmışdır. Gələcəkdə də bu tədbirlər davam etdiriləcəkdir. Bütün bunların müqabilində isə hərbi qulluqçular xidmətlərini nümunəvi təşkil etməli, sərhədlərimiz etibarlı qorunmalıdır."

Ali Məclisin sədri xidməti vəzifələrinin yerinə yetirilməsində şəxsi heyətə uğurlar arzulayıb.

Baş leytenant Vüsal Qasımov və əsgər Vəli Axundlu şəxsi heyət adından minnətdarlıq edərək deyiblər ki, Vətənə xidmət şərəf işidir. "Yüksək dağlıq şəraitdə torpaqlarımızın müdafiəsində dayanmaq isə ikiqat qürurvericidir. Əsgərlərin döyüş ruhu və mənəvi-psixoloji hazırlığı yüksəkdir. Şəxsi heyət arasında birlik və bərabərlik vardır. Bu gün ordumuz ona görə güclüdür ki, o, qüdrətli dövlətimizə və xalqımıza arxalanır."

Ali Məclis sədrinin əsgərlərlə görüşməsi onların məsuliyyətini artırır. Çıxış edənlər həmçinin bildiriblər ki, bundan sonra da torpaqlarımızın keşiyində ayıq-sayıq dayanacaq, "bir nəfər hamı, hamı bir nəfər üçün" şüarına əməl edərək xidməti borclarını şərəflə yerinə yetirəcəklər.

Ali Məclisin sədri əsgərlərin məişət şəraiti ilə maraqlanıb.

Bildirilib ki, hərbi hissədə əsgərlərin qidalanması, yaşayışın və xidmətin nümunəvi təşkili üçün bütün tədbirlər görülüb. Binada yataqxana, yeməkxana, ərzaq və əşya anbarları, tibb və ideoloji otaqlar vardır. Günün nizam qaydasına uyğun olaraq əsgərlərin fiziki hazırlığına, təlimlərdə iştirakına, qidalanmasına və sağlamlıqlarının qorunmasına ciddi diqqət yetirilir, şəxsi heyət mütəmadi olaraq tibbi müayinədən keçirilir.

Müdafiə qüdrətinin gücləndirilməsi və əlverişli hücum mövqeyinin seçilməsi, hərbi hissənin əhatə etdiyi postların müasir döyüş texnikaları və silahlarla təmin olunması, postlar arasında yol və dayanıqlı rabitə əlaqələrinin yaradılması xidmətin səmərəli təşkilinə imkan verir.

Sonra Ali Məclisin sədri Culfa rayonunun Ləkətağ kəndində yerləşən hərbi hissəyə gəlib, əsgər və zabitlərlə görüşüb.

Ali Məclisin sədri deyib: "Bu gün Azərbaycanda sabitlik və iqtisadi inkişaf vardır. Ölkəmizdə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər sabitliyi, sabitlik isə iqtisadi inkişafı təmin etmişdir. Vaxtilə bu ərazilərdə heyvandarlıqla məşğul olanlar çətinliklərlə qarşılaşırdı. Bu gün isə ərazidə onlarla oba vardır. Çünki sərhədlərimizdə hərbi xidmət nümunəvi təşkil olunmuşdur. Oba sakinləri öz təsərrüfatlarında on minlərlə heyvan saxlayır, yaylaqlardan təhlükəsiz və səmərəli istifadə edirlər. Onlar ordumuza arxalanaraq düşmənlə sərhəddə öz ailələri ilə məskən salırlar. Bütün bunlar bir daha təsdiq edir ki, vətəndaşlarımız öz ordusuna, əsgərinə güvənir. Eyni zamanda bütün bunlar ölkəmizdə ordu quruculuğu və iqtisadi inkişafın təmin olunması sahəsində həyata keçirilən tədbirlərin nəticəsi, xalq-ordu birliyinin bariz ifadəsidir".

Ali Məclisin sədri bildirib: "Yüksək dağ şəraitində yerləşən hərbi hissələrdə xidmət bundan sonra da nümunəvi təşkil olunmalıdır. Çünki hərbi xidmətin uğurla yerinə yetirilməsi, sərhədlərimizin qorunması sabitliyin təmin olunmasına, sakinlərin öz kəndlərində, heyvandarların isə yaylaqlarda rahat və təhlükəsiz yaşamasına imkan verir".

Kapitan Rüfət Orucov və əsgər Naim Kərim deyiblər ki, dağ şəraitində xidmət edən əsgər və zabitlər üçün bütün şərait yaradılıb. Hərbi qulluqçularla görüşlər isə onların döyüş ruhunu daha da artırır. Vətənə sədaqətlə xidmət etmək, torpaqlarımızı, dövlətimizi, xalqımızı müdafiə etmək hər bir hərbi qulluqçunun qarşısında duran ən başlıca vəzifədir. Düşmən bilməlidir ki, qüdrətli Azərbaycan əsgəri istənilən döyüş tapşırığını yerinə yetirmək əzmindədir.

Həmin gün Ali Məclisin sədri oba sakinlərinin təhlükəsizliyini təmin etmək məqsədilə ərazidə xidmət aparan Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının hərbi qulluqçuları ilə də görüşüb, xidmətin təşkili ilə bağlı müvafiq tapşırıqlar verib.

Gətirilmiş müxtəlif ərzaq məhsulları hərbi hissələrin anbarlarına təhvil verilib.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**2 avqust 2016-cı il.**

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 14 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar, Berkaber kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Qızılhacılı kəndlərində və adsız yüksəkliklərdə, Noyemberyan rayonunun Voskevan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində, Berd rayonunun Mosesqex kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Füzuli rayonunun Aşağı Seyidəhmədli, Xocavənd rayonunun Kuropatkino kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# MDB dövlət başçılarının terrora qarşı bəyanatının layihəsi razılaşdırılıb

İyulun 28-29-da Minskdə, MDB İcraiyyə Komitəsində Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin başçılarının İŞİD və digər terrorçu təşkilatlara qarşı mübarizə ilə əlaqədar gələcək addımlarına dair Bəyanatının və MDB Dövlət Başçıları Şurasının (DBŞ) həmin məsələ ilə bağlı qərarının layihəsinin razılaşdırılması üzrə ekspert qrupunun iclası keçirilib. Bu barədə AZƏRTAC-a qurumun Minskdəki qərargahının mətbuat xidmətindən məlumat verilib.

İclas iştirakçıları Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Rusiya, Ukrayna və digər ölkələrin qeyd və təkliflərini nəzərə alaraq, sənədin layihəsini tamamlayıblar, bəyanatın layihəsinin adını dəyişdirərək, "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin başçılarının beynəlxalq terrorizmə qarşı mübarizə üzrə gələcək birgə səyləri haqqında bəyanatı" adlandırıb və səs çoxluğu ilə razılaşdırıblar.

MDB İcraiyyə Komitəsi sənədin layihəsini ölkələr daxilində razılaşdırmaq üçün ekspert qrupunun iclasının materiallarını MDB ölkələrinə göndərəcək. Bundan sonra onlar müəyyən edilmiş qaydada baxılması üçün MDB DBŞ-yə təqdim ediləcək.

Bəyanatın layihəsi Rusiya tərəfindən hazırlanıb. Sənəddə terrorizmin beynəlxalq sülhə və təhlükəsizliyə təhdidlərinin artmasından narahatlıq ifadə olunur, terrorizmin bütün forma və təzahürləri kəskin qınanır və vurğulanır ki, ideoloji, dini, siyasi, irqi, etnik və yaxud digər səbəblərlə terror aktlarına bəraət əsla qazandırıla bilməz.

Sənəddə terrorizmə qarşı səmərəli mübarizə aparmaq və BMT-nin himayəsi altında beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan geniş antiterror koalisiyası formalaşdırmaq üçün dünya birliyinin səylərini birləşdirməyin zəruri olmasına əminlik ifadə olunub.

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

***Suallar:***

**1. Azərbaycan Respublikası rəhbərliyinin ölkənin müdafiə qabiliyyətinin yüksəldilməsi istiqamətində fəaliyyəti.**

**2. Hərbi hissə və birləşmələrin 2016-cı ilin yay tədris dövründə əsas vəzifələri.**

**Mövzu:** *Azərbaycan Respublikası rəhbərliyinin ölkənin müdafiə qabiliyyətinin yüksəldilməsi istiqamətində fəaliyyəti. Hərbi hissə və birləşmələrin 2016-cı ilin yay tədris dövründə əsas vəzifələri.*

**Məqsəd:** *Şəxsi heyəti Azərbaycan Respublikası rəhbərliyinin ölkənin müdafiə qabiliyyətinin yüksəldilməsi istiqamətindəki fəaliyyəti ilə tanış etmək, hərbi qulluqçuları qarşıda duran vəzifələrin yerinə yetirilməsinə səfərbər etmək.*

*Azərbaycan Respublikası rəhbərliyinin ölkənin müdafiə qabiliyyətinin yüksəldilməsi istiqamətindəki fəaliyyəti*

Artıq 25 ildir ki, müstəqil Azərbaycan Respublikası dünya dövlətləri arasında öz layiqli yerini tutur və inkişaf etmiş dövlətlər sırasına qoşulmaq yolunda böyük inam və qətiyyətlə irəliləyir.

Respublika rəhbərliyi regionda sülhün bərqərar olunması və ölkənin müdafiə qabiliyyətinin yüksəldilməsi üçün ardıcıl siyasət aparır. Azərbaycan 2 mart 1992-ci il tarixdən Birləşmiş Millətlər Təşkilatının üzvüdür və daim bu beynəlxalq təşkilatın nüfuzundan yararlanaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həll edilməsinə çalışıb. İndiyədək bu beynəlxalq təşkilat tərəfindən 4 qətnamə qəbul olunub, lakin təəssüflər olsun ki, bu qətnamələrin heç biri icra olunmayıb.

20 yanvar 1992-ci ildə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına (ATƏT) üzv qəbul olunandan bəri ölkəmiz Dağlıq Qarabağ münaqişəsinin həllində bu təşkilatın da gücündən yararlanmağa çalışır. Təşkilat çərçivəsində problemin həlli üçün 1992-ci ildə tərkibinə 11 dövlətin qatıldığı (Almaniya Federativ Respublikası, ABŞ, Fransa, İtaliya, İsveç, Çexiya, Türkiyə, Belarus, Rusiya, Azərbaycan və Ermənistan) Minsk Qrupu yaradılmışdır və fəaliyyət göstərir. Minsk Qrupunun həmsədrləri funksiyasını 1994-cü ilin dekabrından iki ölkə - Rusiya və Finlandiya, 1997-ci ildən isə 3 ölkə - Rusiya, ABŞ və Fransa icra edir. Lakin təəssüflər olsun ki, bu günədək qrupun fəaliyyətində heç bir irəliləyiş nəzərə çarpmamışdır. Baxmayaraq ki, hələ ATƏT-in Lissabon sammitində (3-4 dekabr 1996-cı il) münaqişənin sülh yolu ilə həlli üçün önəmli təkliflər verən Azərbaycan tərəfinin bütün səyləri heç bir nəticə verməmişdir. O zaman sammitdə iştirak edən 52 dövlətin başçıları hamılıqla (Ermənistan istisna olmaqla) Dağlıq Qarabağ münaqişəsinin üç prinsip əsasında həllini dəstəkləmişdilər:

1. Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazi bütövlüyü;

2. Dağlıq Qarabağa Azərbaycanın tərkibində ən yüksək muxtariyyat hüququnun verilməsi;

3. Dağlıq Qarabağın bütün mülki əhalisi üçün təhlükəsizlik təminatının verilməsi.

Azərbaycan bu gün də bu prinsiplərə sadiqliyini nümayiş etdirir. Ermənistan tərəfi isə hər vəchlə danışıqlar prosesini pozmağa, təxribatlar törətməyə çalışır. Ermənistan Respublikasının keçmiş prezidenti Robert Köçəryanın AŞPA-nın yay sessiyalarından birində çıxışı və "Dağlıq Qarabağ heç bir zaman müstəqil Azərbaycanın tərkibində olmayıb. Erməni əhalisi burada özünü Azərbaycanın yeritdiyi etnik təmizləmə siyasətindən qorumağa məcbur olub və bu səbəbdən də öz təhlükəsizliyini təmin etmək üçün Azərbaycan Respublikasının bəzi ərazilərini işğal etməyə məcbur olub" deməsi məhz belə bir təxribat hesab edilə bilər.

1-2 dekabr 2010-cu il tarixdə Qazaxıstan Respublikasının paytaxtı Astanada keçirilən ATƏT-in VII sammitində Prezident İlham Əliyev cənablarının bütün səylərinə baxmayaraq, danışıqlar önəmli bir nəticə vermədi. Ermənistan prezidenti Serj Sarkisyanın pozucu fəaliyyəti nəticəsində qətnamə qəbul edilmədən başa çatmış Astana sammiti yalnız Minsk Qrupu həmsədrləri, dövlətlərin nümayəndə heyətləri başçılarının və Azərbaycan, Ermənistan prezidentlərinin birgə bəyanatı ilə yadda qaldı. Bəyanatı imzalayan tərəflər razılığa gəldilər ki, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə yönəlmiş daha qətiyyətli tədbirlər görmək vaxtı çatmışdır və münaqişə beynəlxalq prinsiplər əsasında həll edilməlidir. ATƏT-in Astana sammitində Azərbaycanın haqlı mövqeyini qətiyyətlə müdafiə edən ölkələrdən biri də, hər zaman olduğu kimi, Türkiyə Cümhuriyyəti olmuşdur. Sammitdə çıxış edən Türkiyə Prezidenti Abdullah Gül "dövlət başçıları ölkələrin ərazi bütövlüyünün qorunması məsələsində həssaslıq göstərməlidirlər. Azərbaycan və Ermənistan arasında uzun müddətdir həll olunmayan Dağlıq Qarabağ probleminin sülh yolu ilə nizama salınması istiqamətində ATƏT-ə üzv ölkələr səylərini gücləndirməlidirlər", söyləmişdir.

24 iyun 2014-cü il tarixdə Strasburqda Avropa Şurası Parlament Assambleyasının tribunasından Azərbaycan Prezidenti cənab İlham Əliyevin kəskin və inandırıcı çıxışı bir daha dünya ictimaiyyətinə Dağlıq Qarabağ həqiqətlərinin çatdırılması oldu: "Ermənistan-Azərbaycan münaqişəsi bütün regionu təhlükə altına salır. Bu, dondurulmuş münaqişədir. Lakin bu münaqişə, əslində, donmuş hesab edilə bilməz. O, dondurula bilməz, çünki münaqişə öz həllini tapmalıdır. Dağlıq Qarabağ Azərbaycanın tarixi hissəsidir. Azərbaycanlılar Dağlıq Qarabağda əsrlər boyu yaşayıblar. Ermənilər bu yerlərdə iki yüz ildən az müddət öncə yaşamağa başlayıblar. Tarixi abidələr, Dağlıq Qarabağdakı irsimiz, əfsuslar ki, hazırda erməni işğalçı ordusu tərəfindən dağıdılıb. Münaqişə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin işğalı ilə nəticələnib. Biz erməni silahlıları, erməni ordusu tərəfindən etnik təmizləməyə məruz qalmışıq. Bir milyon azərbaycanlı öz ölkəsində qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Dağlıq Qarabağ və onun ətrafında yerləşən yeddi rayon 20 ildən artıqdır ki, işğal altındadır. Bu, çox böyük ədalətsizlikdir".

Həqiqəti bariz şəkildə əks etdirən bu bəyanat Azərbaycan Prezidentinin daim ikili standartlardan çıxış edən, Krım olaylarına münasibət, Dağlıq Qarabağ məsələsinə, Azərbaycan torpaqlarının işğal altında saxlanması məsələsinə tam fərqli münasibət göstərən dünya birliyinə, Qərb diplomatiyasına sərt mesajı idi.

1994-cü ildə Ermənistanla atəşkəs haqqında saziş (14 may 1994-cü il) imzalandıqdan sonra ümummilli lider Heydər Əliyevin başçılığı altında ordu quruculuğu sahəsində aparılan işlər öz bəhrəsini vermiş, Azərbaycanın ərazi bütövlüyünü bərpa edib suverenliyini qorumağa qadir ordusu yaranmışdır. Heydər Əliyev NATO-nun Praqa sammitində bir daha qeyd etmişdi ki, Azərbaycan beynəlxalq terrorizmə və ekstremizmə qarşı barışmaz mübarizə apararaq, əsas səylərini öz ərazilərini Ermənistanın işğalından azad etməyə yönəldir.

Azərbaycan öz müdafiə qabiliyyətini artırmaq üçün NATO ilə sıx əməkdaşlıq edir. Hələ 1992-ci ilin oktyabrından təməli qoyulan qarşılıqlı münasibətlər sonradan 1994-cü ilin 4 may tarixində Azərbaycanın NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşulması ilə nəticələndi. Bu günədək proqram çərçivəsində keçirilən tədbirlərdə Silahlı Qüvvələrimizin nümayəndələri fəal iştirak edirlər.

ABŞ-da 2001-ci ilin 11 sentyabrında baş vermiş terror aktından sonra Avroatlantika birliyinin yaratdığı antiterror koalisiyasına ilk qoşulanlardan biri də Azərbaycan oldu. Ölkəmiz NATO-nun sülhməramlı tədbirlərinə də qatılıb. Sülhməramlılarımız bu gün də Əfqanıstanda xidmət edirlər. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev cənablarının tez-tez hərbi hissələrdə olması, döyüş hazırlığı, şəxsi heyətin məişət şəraiti ilə maraqlanması, həmçinin hərbi qulluqçuların mənzil şəraitinin yaxşılaşdırılması sahəsində 2011-ci ildə imzaladığı fərman ölkə rəhbərliyinin Silahlı Qüvvələrə qayğışının parlaq təzahürüdür.

Hələ Prezident kimi xaricə ilk rəsmi səfərində, İnformasiya Cəmiyyəti üzrə Cenevrə Sammitində cənab İlham Əliyev bir daha iştirakçıların nəzərinə çatdırmışdı ki, ölkəmizdə keçid dövrünün öz problemləri olsa da, Dağlıq Qarabağ münaqişəsi onu ən çox düşündürən məsələ, Azərbaycanın ən ağrılı problemidir. Azərbaycanın regionda yerini sammit iştirakçılarının nəzərinə çatdıran cənab Prezident İlham Əliyev demişdi: "Azərbaycan regionda çox önəmli rol oynayır. Azərbaycan regionda aparıcı dövlətdir, öz mövqeyini möhkəmləndirir. Bütün irimiqyaslı beynəlxalq və regional layihələrdə də Azərbaycan aparıcı rol oynayır. Azərbaycanın rolu olmadan heç bir layihə həyata keçirilmir. Energetika sektorunda, eyni zamanda nəqliyyat sektorunda da, gələcəkdə "Şimal-Cənub" nəqliyyat dəhlizində də Azərbaycan önəmli rol oynayacaqdır. Əlbəttə, Azərbaycan çalışacaqdır ki, yeni informasiya texnologiyaları sahəsində də mövqelərini möhkəmləndirsin. Bu gələcək üçün lazımdır. Yeni nəsil üçün lazımdır. Azərbaycan əhalisinin əksəriyyəti gənc insanlardan ibarətdir. Ölkəmiz müasirləşəcək, yeniləşəcək, yeni mərhələyə qədəm qoyacaqdır".

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev beynəlxalq təşkilatların nümayəndələri ilə bütün görüşlərində Ermənistanın işğalçı dövlət olduğunu, işğal edilmiş ərazilərdən narkotiklərin yetişdirilməsi üçün istifadə olunduğunu onların nəzərinə çatdıraraq beynəlxalq təşkilatların qarşısında qəti məsələ qoymuşdur ki, bu ərazidə monitorinq keçirilməlidir. Çünki bu nəzarətsiz ərazi bütün bölgə üçün təhlükə yaradır, orada müxtəlif beynəlxalq terror təşkilatları təlim keçirlər. Təbii ki, belə olan halda həmin ərazi təkcə Azərbaycan və bölgə üçün deyil, eləcə də dünya üçün böyük təhlükə yaradır. Ümid etmək olar ki, ATƏT-in sülhəraşdırıcı missiyasının işğal olunmuş ərazilərə səfərləri erməni gerçəkliklərinin dünya xalqlarına çatdırılmasına xidmət edəcəkdir.

2011-ci ildə Azərbaycan Respublikasının BMT-nin Təhlükəsizlik Şurasına Şərqi Avropadan qeyri-daimi üzv seçilməsi və 2012-2013-cü illər ərzində ölkəmizin bu mötəbər təşkilatda təmsil olunması Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılması üçün bizə böyük imkanlar yaratdı.

Bu gün hər sahədə olduğu kimi, ordu quruculuğu və xarici siyasət sahəsində də ulu öndərin kursunu layiqincə davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev istər NATO ilə strateji əməkdaşlıq, istərsə də ordumuzun müasir standartlara uyğunlaşdırılması sahəsində əməli işin görülməsinə ciddi diqqət yetirir. 26 iyun 2014-cü il tarixdə Silahlı Qüvvələrimizin genişmiqyaslı taktiki təlimi zamanı ordumuzun bugünkü durumu ilə yaxından tanış olan Prezident İlham Əliyev cənablarının dövlətimizin ordu quruculuğuna bundan sonra da qayğı ilə yanaşacağını, işğal altında olan torpaqlarımızın azad edilməsi üçün ordunun gücünün artırılması, maddi-texniki bazasının təkmilləşdirilməsi məsələlərinin hökumətin fəaliyyət proqramının daim əsasını təşkil edəcəyini bir daha bəyan etməsi buna əyani sübutdur.

Regionda sülhün bərqərar olunması, beynəlxalq təhlükəsizliyin təmin olunması, terrorizmə qarşı mübarizənin təşkili sahəsində NATO ilə əməkdaşlığın genişləndirilməsi sahəsində Azərbaycan böyük uğurlar qazanıb.

**(Ardı 5-ci səhifədə)**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

**(Əvvəli 4-cü səhifədə)**

Məlum olduğu kimi, 2016-cı ilin ötən dövrü ərzində dünyanın müxtəlif bölgələrində hərbi toqquşmalar, müharibələr davam etmiş, yeni münaqişə ocaqları yaranaraq, dünyada təhlükələr artmışdır. Eyni zamanda dünyada iqtisadi böhran daha da dərinləşmişdir ki, nəticədə bütün ölkələr bu və ya digər formada əziyyət çəkməyə başlamışlar.

Ötən dövr ərzində Ermənistanın növbəti təxribatı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində də çox ciddi fəsadlara gətirib çıxarmışdır. Ermənistan daim danışıqları müxtəlif yollarla pozmağa çalışmış və beynəlxalq vasitəçilər tərəfindən onlara qarşı təzyiqlər artdığı halda növbəti təxribatlara əl atmağa başlamışdır. Həmin təxribatlardan biri də aprelin əvvəllərində baş vermiş silahlı təxribat hadisəsidir. Azərbaycan Ordusu bu təxribatın qarşısını vaxtında alıb düşmənə layiqli cavab verərək, əks-hücum əməliyyatı həyata keçirmiş və işğal altındakı torpaqların bir hissəsini, daha dəqiq, 2 min hektar torpağımızı düşmən tapdağından azad etmişdir. Aprel döyüşləri bir daha onu göstərdi ki, status-kvo tezliklə dəyişdirilməli və işğal edilmiş torpaqlar azad edilməlidir.

Bu gün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli Azərbaycan üçün prioritet məsələlərdən biridir. Bu məsələnin tezliklə beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edilməsi Azərbaycan üçün əsas vəzifədir. NATO-nun Zirvə görüşündə qəbul edilmiş yekun sənəddə Azərbaycanın suverenliyi və ərazi bütövlüyü ilə bağlı çox ciddi məqamlar öz əksini tapmışdır.

2016-cı ilin ötən dövrü ərzində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin çoxsaylı xarici səfərləri beynəlxalq əlaqələrimizi daha da möhkəmləndirmişdir. Öz işinə başlamış Davos Ümumdünya İqtisadi Forumu - dünya miqyasında birinci beynəlxalq tədbir kimi həm iqtisadi, həm də siyasi məsələləri diqqət mərkəzinə çıxarmışdır.

Eyni zamanda Münhen Təhlükəsizlik Konfransı Davos Forumu ilə eyni səviyyədə olan beynəlxalq tədbirlərdən biridir. Həmin tədbirdə Azərbaycanın, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi səslənmişdir.

Londonda Suriyaya yardım məqsədilə keçirilmiş konfransda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin iştirakı Azərbaycanın mövqeyini və imkanlarını bir daha ortaya qoymuşdur.

Bundan başqa Vaşinqtonda Nüvə Sammitində Azərbaycan fəal iştirak etmişdir. Azərbaycan nüvə dövləti deyil və Azərbaycanda nüvə tədqiqatları demək olar ki, aparılmır. Lakin buna baxmayaraq, Azərbaycan həmin Sammitə dəvət edilmiş ölkələrin sırasında olmuş və eyni zamanda Sammit çərçivəsində Amerikanın yüksək səviyyəli rəhbərləri ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çox səmərəli görüşləri olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev bundan başqa Türkiyədə iki beynəlxalq tədbirdə iştirak etmişdir. Bunlardan biri İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşü olmuşdur ki, orada aprel döyüşləri ilə bağlı Azərbaycanın mövqeyi tam dəstəklənmişdir. Yekun bəyannamədə Azərbaycanın ərazi bütövlüyü məsələləri əks olunmuş və münaqişənin bu prinsiplər əsasında həlli xüsusi qeyd edilmişdir. Eyni zamanda münaqişə ilə bağlı İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində kontakt qrupu da yaradılmışdır ki, bu da Azərbaycanın böyük diplomatik uğurlarından biridir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev həmçinin Türkiyədə keçirilən digər mötəbər beynəlxalq tədbirlərdə Dünya Humanitar Sammitində, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mayda Vyanada və iyunda isə Sankt-Peterburqda ikitərəfli görüşlər keçirmişdir.

Bütün bu beynəlxalq tədbirlər və Azərbaycanın həmin tədbirlərdə fəal iştirakı ölkəmizin nüfuzunu göstərir və eyni zamanda Azərbaycan üçün yeni imkanlar yaradır. Hər bir beynəlxalq tədbirdə Azərbaycanın mövqeyinə, xüsusilə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə diqqət yetirilib.

Varşavada NATO-nun Zirvə görüşündə də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev çıxışını bu mövzuya həsr etmiş və orada iştirak edən dövlət və hökumət başçılarına bir daha həqiqətləri çatdırmışdır. Bu gün Ermənistanın yalanları artıq heç kimə təsir göstərmir. Onlar diaspor imkanlarından istifadə edərək münaqişə ilə bağlı yalan məlumatlar yayırdılar. Lakin artıq o dövr arxada qalmışdır.

Bu gün Azərbaycan öz hərbi potensialını gücləndirib. Belə ki, Azərbaycan Ordusu həm texniki təchizat, həm də döyüş qabiliyyəti baxımından dünya miqyasında güclü ordular sırasındadır. Bu gün ordumuz istənilən hərbi vəzifəni icra etməyə qadirdir. Azərbaycan sadəcə olaraq hələ də ümid edir ki, bu münaqişə sülh yolu ilə həll oluna bilər.

Bu gün Azərbaycanın hərbi potensialının gücləndirilməsi prioritet olaraq qalmaqdadır. Aprel hadisələrindən sonra ordumuz döyüş qabiliyyətini yüksək dərəcədə artırmış və ən müasir texnika, silah-sursat alınmışdır. Əlbəttə ki, bu, Azərbaycanın gücünü artırır və danışıqlar prosesində mövqelərimizi gücləndirir.

Azərbaycan Respublikasının yerləşdiyi regionunun böyük dünya dövlətlərinin əsas maraq dairəsində olmasını və regionda müharibə ocaqlarının artmasını nəzərə alsaq, regionun və Azərbaycanın təhlükəsizlik məsələlərinin yeni səviyyədə nəzərdən keçirilməsi zəruridir. Bütövlükdə isə regional əməkdaşlığın fərqli məzmun alması üçün yeni imkanlar açılır. Bu imkanlardan Azərbaycan dövlətçiliyinin xeyrinə istifadə etmək üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin gördüyü işlər və səylər təqdirəlayiq sayılır.

## *Hərbi hissə və birləşmələrin 2016-cı ilin yay tədris dövründə əsas vəzifələri*

Ölkə rəhbərliyi Azərbaycan Ordusunun döyüş qabiliyyətinin yüksəldilməsi üçün ardıcıl iş aparır. Ordunun strukturu müasir hərbi əməliyyatların tələblərinə uyğun olaraq təkmilləşdirilir. Silahlı Qüvvələr döyüş hazırlığı prosesinin keyfiyyətli təşkili üçün lazımi maddi və texniki vəsaitlə təmin olunur.

Ölkə rəhbərliyinin bu qayğısı nəticəsində Silahlı Qüvvələrin hissələri öz döyüş hazırlığını artırır. Hissə və birləşmələrdə komanda-qərargah və taktiki təlimlər, atışlar və çöl təlimləri döyüş şəraitinə maksimum yaxınlaşdırılmış şəraitdə keçirilir.

Ordu quruculuğunun əsas prinsiplərindən biri olan kadr hazırlığı da olkə rəhbərliyinin daim nəzarəti altındadır. Bu gün Azərbaycanda Hərbi Akademiya, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzi, Heydər Əliyev və Cəmşid Naxçıvanski adına iki Hərbi Lisey fəaliyyət göstərir.

Ordu quruculuğunu daim öz nəzarəti altında saxlamış ulu öndər Heydər Əliyev Silahlı Qüvvələrin inkişafı və maddi bazasının möhkəmləndirilməsi məqsədi ilə 2002-ci il avqustun 17-də "Silahlı Qüvvələrə yardım fondunun yaradılması haqqında" fərman imzalamışdı. Bu fondun yaradılmasından keçən müddət ərzində xalqımızın bütün təbəqələri orduya yardım göstərirlər.

Ordu quruculuğu prosesini diqqət mərkəzində saxlayan Ali Baş Komandan İlham Əliyev hələ 2003-cü il oktyabrın 31-də andiçmə mərasimindəki nitqində demişdir: "Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır." Daha sonra işğal olunmuş torpaqlarımızın azad edilməsi məsələsinə toxunan İlham Əliyev cənabları demişdir: "Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir". Bu gün də Prezidentimiz ölkənin müdafiə qabiliyyətinin artırılmasını diqqət mərkəzində saxlayır. Azərbaycan Respublikasının dövlət büdcəsində müdafiə xərclərinin daim artırılması (2010-cu ildə 2 milyard ABŞ dolları, 2011-ci ildə 2.5 milyard ABŞ dolları, 2012-ci ildə 3 milyard ABŞ dolları, 2013-cü ildə 3.4 milyard ABŞ dolları, 2014-cü ildə 3.7 milyard ABŞ dolları, 2015-ci ildə 4.5 milyard ABŞ dolları, dünyada baş verən iqtisadi böhranın dərinləşməyinə baxmayaraq, 2016-cı ildə hərbi büdcəmizin 5 milyard ABŞ dolları həcmində planlaşdırılması) bunun bariz nümunəsidir.

Hər sahədə olduğu kimi, ordu quruculuğu sahəsində də ulu öndər Heydər Əliyevin kursu uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında dövlətimiz ordumuzun döyüş qabiliyyətinin artırılması, respublikamızın müdafiə qabiliyyətinin möhkəmləndirilməsi istiqamətində məqsədyönlü fəaliyyətini davam etdirir.

2013-cü ilin oktyabrında Prezident seçkilərindən sonra Müdafiə naziri vəzifəsinə general-polkovnik Zakir Həsənovun təyin olunması ilə Silahlı Qüvvələrimizdə başlamış genişmiqyaslı islahatlar ordumuzun döyüş qabiliyyətinin daha da artırılmasına, mənəvi-psixoloji vəziyyətin yaxşılaşdırılmasına xidmət edir. Regionun ən güclü ordusu olan Silahlı Qüvvələrimizi daha da gücləndirmək, onun maddi-texniki bazasını müasir tələblər səviyyəsinə çatdırmaq qarşıda qoyulan əsas vəzifədir. Məqsəd isə birdir: ordumuzun hər an işğal altında olan Vətən torpaqlarının azadlığı uğrunda mubarizəyə hazır olması. Qəbul olunmuş Azərbaycan Respublikasının Hərbi Doktrinası, yeni dönəmdə Ali Baş Komandan İlham Əliyev cənabları tərəfindən müdafiə strukturları qarşısında qoyulmuş vəzifə və tapşırıqlar məhz buna xidmət edir.

Dünya və regionda yaranmış hərbi siyasi vəziyyət Azərbaycan Silahlı Qüvvələrinin hissə və birləşmələrinin daim döyüş hazırlıqlı, Azərbaycanın müstəqilliyinə və ərazi bütövlüyünə qarşı yönəldilən hər bir təcavüzə layiqli cavab verməyə qadir döyüş qabiliyyətinə malik olmağı tələb edir.

Azərbaycan Silahlı Qüvvələrinin hər bir hərbi qulluqçusu yaddan çıxarmamalıdır ki, bu gün Azərbaycanın ərazi bütövlüyü bərpa olunmayıb, torpaqlarımızın 20 faizi işğal altındadır.

Azərbaycanın regionda və dünyada müstəqil siyasət apara bilməsi üçün yüksək döyüş hazırlıqlı Silahlı Qüvvələri olmalıdır. Bunun üçün isə Azərbaycan Silahlı Qüvvələrinin qarşısında 2016-cı ilin yay tədris dövründə aşağıdakı əsas vəzifələr qoyulmuşdur:

- şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığını daha da təkmilləşdirmək;
- hərbi hissə və birləşmələrdə hərbi intizamın yüksəldilməsi işinin səmərəliliyini artırmaq;
- hərbi hissə və birləşmələrin mənəvi-psixoloji hazırlığını yüksəltmək, şəxsi heyətdə yüksək mənəvi hissləri tərbiyə etmək;
- hərbi kollektivlərdə yüksək döyüş və qələbə ruhunu təmin etmək;
- hərbi hissə və birləşmələrin döyüş qabiliyyətinin səviyyəsini artırmaq və maddi-texniki bazanı möhkəmlətmək;
- rəhbər komandir-rəis heyətinin hazırlanması və hərbi hissələrin peşəkar, savadlı hərbi kadrlarla təmin edilməsi işinin səmərəliliyinin artırılması;
- hərbi qulluqçuların peşəkarlıq səviyyəsini yüksəltmək;
- təmas xəttində düşməni daim qorxu içində saxlamaq, ona işğalla barışmayacağımızı gündəlik aktiv döyüş fəaliyyətimiz ilə başa salmaq;
- düşmənlə təmas xəttində hər bir fürsətdən istifadə edərək düşmənin canlı qüvvəsini və texnikasını vaxtında məhv etmək hissini hərbi qulluqçulara daim aşılamaq;
- 2016-cı tədris ilinin "Qarabağ torpağı erməni işğalçılarının ayağı altında od tutub yanacaqdır" devizinin real həyata keçirilməsi məqsədi ilə bacarıq və səylərimizi səfərbər edərək düşmənə maksimum itki yetirməyə çalışmaq.

Bu gün Azərbaycan Silahlı Qüvvələrinin qarşısında torpaqlarımızı azad etmək üçün hər an hazır olmaq vəzifəsi durur. Hər bir hərbi qulluqçu dərk etməlidir ki, o, öz vəzifə borcunu vicdanla yerinə yetirməklə, döyüş hazırlığı dərslərində, təlimlərdə hərbi biliklərə dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, intizamlı olmaqla özünü torpaqlarımızın azadlığı uğrunda gələcək döyüşlərə hazırlayır.

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan hərbçiləri “Beynəlxalq Ordu Oyunları - 2016” yarışlarında

*İyulun 30-da Rusiya Federasiyasının paytaxtı Moskva şəhəri yaxınlığındakı Kubinkada "Beynəlxalq Ordu Oyunları - 2016" yarışlarının rəsmi açılış mərasimi keçirilib. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin müavini - Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanovun rəhbərlik etdiyi nümayəndə heyətimiz "Xəzər Kuboku" və "Tank biatlonu" yarışlarında ölkəmizi təmsil edir.*





İyulun 30-da Alabino poliqonunda "Beynəlxalq Ordu Oyunları - 2016" yarışlarının "Tank biatlonu" müsabiqəsinə start verilib.

Azərbaycan tankçılarının da qatıldığı yarışlarda 17 ölkədən 51 tank heyəti iştirak edir. Yarışlarda Azərbaycan tankçıları T-72B3 tanklarında çıxış edirlər.

Qeyd edək ki, beynəlxalq hərbi oyunlarda 19 ölkədən 121 komanda ümumilikdə quru, hava və dəniz hazırlığı üzrə 23 müsabiqədə yarışır.

3000 nəfərdən artıq nümayəndənin iştirakı ilə 20 hərbi poliqon və 3 dəniz akvatoriyasında keçirilən oyunlar avqustun 13-dək davam edəcəkdir.

* * *

Azərbaycan tankçıları "Beynəlxalq Ordu Oyunları - 2016" yarışları çərçivəsində keçirilən "Tank biatlonu" yarışlarına qatılıblar.

Müsabiqənin ikinci günündə Azərbaycan, Anqola, Belarus, Venesuela, Zimbabve, Qırğızıstan və Tacikistan tank heyətləri fərdi ustalıqlarını nümayiş etdiriblər.

"Fərdi sürücülük" mərhələsinin tələblərinə əsasən, hər tank heyəti uzunluğu 5 km. olmaqla 3 dairə keçməli, tankın topundan, zenit və qoşa pulemyotlardan atəş açmalıdır. Hər dairədə tanklar manеə və manevr sahələrini, çay və mina sahəsinin zəncirvarı keçidini, kurqan, alov zolağı, tankəleyhinə xəndəyi, eskarp və dağ ətəyi ərazilərdə yaradılmış müxtəlif maneələri dəf edirlər.

Hər atəş mərhələsində şərti düşmənin tank, helikopter və tankəleyhinə heyətlərinin hədəfləri məhv edilməlidir.

Tank heyətlərinin ümumi nəticələri cərimə balları da nəzərə alınmaqla məsafəni qətetmə vaxtı ilə birgə hesablanır. "Fərdi sürücülük" mərhələsinin nəticələrinə görə ən çox xal toplayan 12 komanda yarışların yarımfinalına çıxmaqla "Estafet" mərhələsində iştirak etmək hüququ qazanacaqdır.

* * *

İyulun 31-də Dağıstanın Kaspiysk şəhərində suüstü gəmi heyətlərinin "Xəzər kuboku - 2016" beynəlxalq hərbi-dəniz müsabiqəsinə start verilib.

"Beynəlxalq Ordu Oyunları - 2016" yarışları çərçivəsində keçirilən müsabiqədə Azərbaycan, Qazaxıstan və Rusiyadan olan komandaların heyətində ümumilikdə 130 nəfər iştirak edir.

Qeyd edək ki, "Xəzər kuboku - 2016" üç mərhələdən ibarətdir. Bunlar gəmi silahının təyinatı üzrə istifadəsi, sağqalma uğrunda mübarizə, eləcə də dəniz vərdişləri və xilasetmə hazırlığı üzrə yarışlardır.

Müsabiqənin qalibləri avqustun 11-də müəyyən olunacaqdır.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

Gənc zabitlərimiz

# “Vətəni qorumaq peşəsi ən şərəfli peşədir”



*Müstəqil Azərbaycanın ordu quruculuğunda qazanılan uğurlar, cəmiyyətimizdə formalaşan vətənpərvərlik ənənələri gənc nəslin mübariz ruhda yetişməsinə zəmin yaradır. Artıq ölkəmizdə hərbi peşələri seçən gənclərin sayı ildən-ilə artır. Hər il yüzlərlə gənc yüksək bal toplayaraq zabit peşələrinə yiyələnmək üçün hərbi təhsil ocaqlarına üz tutur. Belə gənclərdən biri - taqım komandiri baş leytenant Ramiq Osmanovla cəbhə bölgəsində tanış oluram. 2012-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirmiş gənc Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonundandır.*

Bir çox həmkarları kimi, Ramiq də zabit olmağı ürəyinin hökmü ilə qətiləşdirib. O, bu sənəti seçəndə yaxşı bilirdi ki, həyatda çətinlikləri az olmayacaq. Amma xarakterində olan qətiyyət, mübarizlik onu bu sahəyə yönləndirib. Hərbi təhsilini başa vuran il cəbhə bölgəsinə göndəriləndə isə qürurlanıb ki, elə ilk təyinatından həyatın sınaqları ilə üzləşəcək. Valideynləri kimi əhatəsində olan hər kəs - vaxtilə ona dərs demiş müəllimləri, tanıdığı komandir və zabitlər də inanıblar ki, Ramiq ilk gündən özünü layiqli zabit kimi təsdiqləyəcək.

Baş leytenant Ramiq Osmanov söhbətinə başlayanda da bildirdi ki, zabit peşəsini seçəndə bu sənətin şərəfli olduğu qədər çətin və məsuliyyətli olduğunu dərindən dərk edib. Amma Azərbaycana, xalqına layiqli vətəndaş olmaq istəyi onu bu peşəyə ruhlandırıb. "Doğulduğum bölgənin qədim hərb ənənələrinə malik olması, Vətənimizin müharibə şəraiti erkən yaşlarımdan məndə zabit peşəsinə maraq oyadıb. Yeniyetməlik çağlarımdan qəlbimdə bir arzu boy atırdı. Bir gün çiyinlərimə zabit paqonu taxılacaq və mən də Vətənimi qoruyan oğulların cərgəsində olacağam."

Ramiq doğru deyir, insan həyatda böyük arzulara, ideallara yetişmək üçün yaşamalı, fədakarlıq göstərməlidir. Yalnız belə olanda həyat sənin üçün qiymətlidir. Həyatını mübarizəsiz təsəvvür edən kəs heç nəyə nail ola bilməz. Amma Ramiq kimi gənclərin doğru, qətiyyətli seçimləri onların arzularına qol-qanad verir. O, zabit olmaq üçün hərbi məktəbə daxil olan gün and içmişdi ki, Vətəni üçün dəyərli zabitlərdən biri olacaq.

- Cəbhə bölgəsində zabit olmaq, şəxsi heyətə rəhbərlik etmək adamdan qat-qat məsuliyyət tələb edir, - deyə baş leytenant söhbətinə davam edir. - Hərbi təhsil aldığımız illərdə ulu öndərimiz, müasir ordumuzun yaradıcısı olan Heydər Əliyevin irsini dərindən öyrənirdik. Dahi rəhbərimiz çıxışlarının birində qeyd edib ki, Azərbaycan gəncləri Silahlı Qüvvələrdə xidmət etmək, Vətəni qorumaq peşəsinə daha həvəslə gəlməlidirlər. "Müstəqil Azərbaycanda hər peşə şərəflidir, ancaq Vətəni qorumaq peşəsi ən şərəfli peşədir. Bugünkü zabitlərin simasında onların keçdiyi həyat yolunun nə qədər maraqlı olduğunu görən hər kəs Vətəni qorumaq peşəsinə daha çox qoşulmalıdır. Mən gəncləri bu peşəyə yiyələnməyə dəvət edirəm".



Ulu öndərin hər sözü, hər kəlməsi bizim üçün qiymətli tövsiyədir. Ümumiyyətlə, onun böyük və mənalı ömür yolu, siyasi fəaliyyəti bizə ən layiqli örnəkdir. Biz Vətəni sevməyi və qorumağı, xalqa və dövlətə sədaqətli olmağı dahi rəhbərdən öyrənməliyik."

Cəbhə bölgəsində xidmətin həm şərəfli, həm də yetərincə məsuliyyətli olduğunu bildirən gənc zabitə görə, çətin, ekstremal şəraitdə komandir olan şəxs yüksək mənəvi keyfiyyətlərə malik olmalıdır. "Barmağı tətikdə, gözü nişangahda olan döyüşçünün hər bir probleminə qayğı ilə, diqqətlə yanaşmaq bir komandir olaraq əsas vəzifəmdir. Təhlükəli mövqelərdə xidmət etmək, doğrudan da, hər birimizdən təmkinli, qayğıkeş olmağı tələb edir. Gərək hər gün, hər saat döyüş növbəsində şəxsi heyətin qayğıları ilə yaşamağı bacarasan. Burada səmimi, mehriban kollektiv yaratmalısan. Tabeliyində olan hər bir əsgər sənə inanmalı və döyüşdə sənə güvənməlidir. Aprel savaşında şəhid olan fədakar zabitlərimizin hər birini özümə örnək bilirəm. Onlar döyüşdə əsgərləri ilə bir sırada oldular."

Azərbaycanın dövlət rəhbərliyi səviyyəsində orduya, hərbi peşə sahiblərinə göstərilən diqqət və qayğı bütün zabitlərimiz kimi, baş leytenant Ramiq Osmanovu da xidmətində daim nümunəvi olmağa, komandiri olduğu hərbi bölmədə uğurlar qazanmağa ruhlandırır. Aprel hadisələrində fədakarlıq göstərən hər kəsin xidməti dövlətimiz tərəfindən yüksək qiymətini aldı. Azərbaycan dövləti öz zabiti, əsgəri üçün lazım olan hər şəraiti yaradır. Bu gün bütün cəbhə bölgələrində hərbi qulluqçuların müasir məişət şəraitinə malik olması ölkə rəhbərliyinin məqsədyönlü siyasətinin parlaq təzahürüdür. Bütün bunlar isə deməyə əsas verir ki, Vətəni qorumaq peşəsini seçən insanlara dövlətimiz tərəfindən yüksək etimad və qayğı göstərilir. Bu etimadı doğrultmaq hər bir Azərbaycan zabitinin müqəddəs borcudur.

**Polkovnik-leytenant
Arif PƏNAHOV,
"Azərbaycan Ordusu"**

# Ordu həyatının işıqlandırılması peşəkarlıq tələb edir

## Ekstremal şəraitdə işləmək istəyən jurnalistlər üçün təcrübə kursu keçirilib

*Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı və Müdafiə Nazirliyinin bilavasitə dəstəyilə "Dinc Dünya" Araşdırma Mərkəzi "Ekstremal jurnalistlərə təcrübə poliqonu təlimlərinin öyrədilməsi" layihəsinin gerçəkləşdirilməsinə başladı.*





İyulun 23-də Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində layihənin təqdimetmə mərasimi keçirildi. "Dinc Dünya" Araşdırmalar Mərkəzinin rəhbəri Əlisafa Mehdiyev jurnalistlər üçün təlimlə bağlı qarşıdakı tədbirlər barəsində məlumat verdi, onlara ekstremal vəziyyətdə peşə fəaliyyətini rahat həyata keçirmək üçün xüsusi geyim formaları təqdim etdi.

Müdafiə Nazirliyinin nümayəndəsi polkovnik Nizami Əliyev KİV nümayəndələrini hərbi hissələrin intizam qaydaları barədə məlumatlandırdı və qarşıdakı təlimlər zamanı həm təhlükəsizlik, həm də günün nizam qaydalarına əməl etməyin zəruriliyini bildirdi.

Layihə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 24 sentyabr 2014-cü ildə imzaladığı "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ermənistan Respublikası Silahlı Qüvvələri ilə təmas xəttində bəzi təhlükəsizlik tədbirləri haqqında" sərəncamından irəli gələn tələblərə uyğun təşkil olunub.

Sərəncamda dövlət sirri təşkil edən məlumatların yayılmasına görə məsuliyyətin gücləndirilməsi, qoşunların dislokasiyası, hərbi-siyasi və əməliyyat şəraiti, hərbi sahədə Azərbaycan Respublikasının milli təhlükəsizliyinə xələl gətirə bilən digər məlumatların yayılmasının yolverilməzliyi, jurnalistlərin cəbhəboyu zonada akkreditasiyası və cəbhəboyu zonaya xidməti ezamiyyətlər və digər zəruri tədbirlərin görülməsilə bağlı müvafiq dövlət qurumları qarşısında tapşırıqlar qoyulmuşdu.

Müdafiə Nazirliyi də öz növbəsində Silahlı Qüvvələrdə kütləvi informasiya vasitələrinin nümayəndələri ilə işin təşkili haqqında təlimatı təsdiq etmişdi. KİV-lə Silahlı Qüvvələr arasında münasibətlərin daha münasib və optimal tənzimlənməsi qaydaları müəyyən olunmuşdu.

Xatırlatmağa dəyər ki, belə bir təlim ötən ilin noyabrında Bakıda keçirilmişdi. Müdafiə Nazirliyinin rəhbərliyi layihənin önəmini nəzərə alaraq qeyri-hökumət təşkilatının təşəbbüsünü müsbət qarşılamış və layihənin baş tutması üçün bütün lazımi şəraiti yaratmışdı.

Ölkəmizin kütləvi informasiya vasitələrini təmsil edən jurnalistlər və Bakı Dövlət Universiteti jurnalistika fakültəsinin tələbələri layihə çərçivəsində ekstremal şəraitdə işləməyin qaydaları və hərbi xidmətin xüsusiyyətləri ilə yaxından tanış olmaq imkanı qazanmışdılar.

Ekstremal şəraitdə işləməyi planlaşdıran jurnalistlər üçün təcrübə kursu, beynəlxalq praktikaya əsasən, Dağlıq Qarabağın relyefinə uyğun təşkil edilib.

Mülki mediada çalışan həmkarlarımızın da ekstremal sahəni seçməsi özlüyündə maraqlı və təqdirəlayiqdir. Artıq həmin jurnalistlər başqa sahələrdə çalışsalar belə, ekstremal sahədə işləmək barədə təsəvvürə malik olacaqlar.

Bütün bunları işıqlandırmaq media nümayəndələrindən yüksək peşəkarlıqla yanaşı, dərin psixoloji hazırlıq da tələb edir. Ona görə ki, ekstremal şəraitdən hazırlanmış materiallar insanların ovqatına güclü təsir göstərir. Belə çətin sahəni seçmiş media nümayəndələri fövqəladə vəziyyəti işıqlandırarkən qanunvericiliyin tələblərinə, jurnalist etikasına ciddi riayət etməli, vətəndaş mövqeyini ortaya qoymalıdırlar. Qanunvericiliklə müəyyən edilmiş hərbi və dövlət sirləri heç bir zaman açıqlanmamalıdır, bu cür məlumatların yayımlanması cinayət məsuliyyəti yaradır.

Layihəyə görə, hər birində 20 nəfər olmaqla 40 nəfərə yaxın reportyor, operator, müxbir və jurnalistika fakültəsinin seçilmiş tələbələrinin iki mərhələdə cəbhə bölgəsinə gedərək təlimlərdə iştirak etməsi planlaşdırılıb.

Ötən istirahət günü təlimə cəlb edilmiş media nümayəndələrinin ilk qrupu cəbhə bölgəsinə yola düşdü və onlar öncə zabit Rasim Manafov tərəfindən təlimatlandırıldı. Bir daha onlara hərbi hissədə necə hərəkət etməyin vacibliyi izah edildi. Ekstremal şəraitlərdə işləməyi peşə fəaliyyəti seçmək istəyən jurnalistlər Müdafiə Nazirliyi tərəfindən kursun keçirildiyi günlərdə bütün lazım olan vasitələrlə - yeməklə, yataqla və s. tam təmin olunmuşdular.

Tədbir zamanı mətbuat nümayəndələri hərbi hissənin yeməkxanası və mətbəxi ilə yaxından tanış oldular. Onlar bir daha şahid oldular ki, Silahlı Qüvvələrimizdə əsgər yeməkxanaları ən müasir avadanlıqlarla təchiz olunub. Artıq xeyli müddətdir ki, mətbəxlərdə mülki qadınlar işləyir və əsgərlərə dadlı Azərbaycan yeməkləri bişirilir. Məsələn, həmin gün hərbi hissənin müasir üslubda inşa edilmiş yeməkxanasında günorta yeməyinə dadlı kələm dolması verildi. Təlim iştirakçıları burada nahar etdilər.

Sonra hərbi hissənin qonaqları poliklinika ilə tanış oldular. Zabit R.Manafov səliqə-sahmanın göz oxşadığı poliklinikanın imkanları barədə jurnalistlərə ətraflı məlumat verdi.

Heydər Əliyev Mərkəzi də öz görkəmilə adamı valeh edir. Binanın foyesində ümummilli liderin həyatı və çoxşaxəli fəaliyyəti barədə maraqlı ekspozisiya nümayiş etdirilir. Ulu öndər Heydər Əliyevin müxtəlif təhsil müəssisələrində oxuduğu illərdə aldığı yüksək qiymətlər, fəaliyyətinə dair sənədlər maraq kəsb edirdi.

Heydər Əliyev Mərkəzində Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə hərbi hissənin quruculuq işlərindən sonra açılışına həsr edilmiş təntənəli mərasimdən hazırlanmış sənədli film nümayiş olundu.

Jurnalistlərə və tələbələrə Müdafiə Nazirliyinin bazasında hərbi hazırlıqla bağlı məşğələləri zabit-mütəxəssis heyəti keçirdi. KİV nümayəndələri təlim günlərində müxtəlif hərbi hissələrdə oldular, təlim meydanına baş çəkdilər. Onlar kəşfiyyat, mühəndis-istehkam, motoatıcı, tank və artilleriya bölmələrinin döyüş hazırlığı dərslərində iştirak etdilər, təhlükəsizlik qaydaları ilə tanış oldular.

Həmkarlarımız həmçinin yerli əhali ilə ünsiyyət qurmaq məqsədilə Gədəbəy rayonu Molokan İcmasının rəhbəri Nikolay Bıçkovla görüşdülər, təmas xəttinə yaxın ərazidə yaşayan milli azlığın qayğıları ilə maraqlandılar. İcma rəhbəri Azərbaycanı Vətəni kimi çox sevdiyini bildirdi, molokanların ölkəmizdə rahat yaşadıqlarını söylədi və Ermənistanın işğalçılıq əməllərinin onların da rahatlıqlarını pozduğunu dilə gətirdi. Nikolay Bıçkov onu da vurğuladı ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda molokanlar da vuruşub, itki veriblər.

Ekstremal şəraitdə özünü qorumağı bacarmaq və eyni zamanda informasiya əldə etmək o qədər də asan deyil. Bizim jurnalistlər təkcə ölkəmizdə deyil, başqa ölkələrdə də ekstremal vəziyyətlərdə xəbər və reportajlar hazırlamağa göndərilə bilərlər. Layihə rəhbərləri bu vəziyyəti də nəzərə alaraq jurnalistləri etik davranış qaydaları, qanun və hüquqi-normativ aktlar barədə də məlumatlandırmaq qərarına gəlmişdilər. Yad ölkədə, münaqişə regionunda, terror hadisəsinin, təbii fəlakət və qəzaların baş verdiyi yerlərdə davranış qaydalarını bilmək olduqca gərəklidir.

"Dinc Dünya" Araşdırmalar Mərkəzinin rəhbəri Əlisafa Mehdiyevin açıqlamasına görə, təlimlərə sentyabrın 17-də yekun vurulacaq və iştirakçılara diplomlar təqdim ediləcək.




**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

# Qəbələ festivalı böyük maraqla keçir

*Qəbələ Beynəlxalq Musiqi Festivalı son zamanlar Azərbaycanda ənənəvi şəkildə keçirilən mühüm tədbirlərdən birinə çevrilib. Bu festival Heydər Əliyev Fondunun uğurlu layihələrindən biridir. Qəbələ festivalı xarici qonaqlara Azərbaycan bəstəkarlarının əsərlərini təqdim etməklə yanaşı, yerli musiqisevərlərə dünyanın klassik sənət inciləri ilə yaxından tanış olmaq imkanı verir.*

Bu sözləri AZƏRTAC-a müsahibəsində VIII Qəbələ Beynəlxalq Musiqi Festivalının bədii rəhbəri, "Kiyev virtuozları" orkestrinin musiqi rəhbəri, İsrailin Yerusəlim Simfonik Orkestrinin dirijoru, dünya şöhrətli violonçel ifaçısı Dmitri Yablonski deyib.




O qeyd edib ki, dünyanın müxtəlif ölkələrindən görkəmli musiqiçilər, bədii kollektivlər, solistlər və dirijorların iştirak etdiyi VIII Qəbələ Beynəlxalq Musiqi Festivalında gənc muğam ifaçılarının çıxışı, konsertlərdə səslındirilən Azərbaycan və Avropa bəstəkarlarının əsərləri böyük tamaşaçı marağına səbəb olur. Festival günlərində Qəbələdə böyük izdiham yaşanır, xüsusi bayram ab-havası hökm sürür.

"Bura gələn xarici qonaqlar Azərbaycanın sürətli inkişafı, insanların adət-ənənələri və mədəniyyəti, milli musiqisi, muğam və bəstəkar əsərləri ilə yaxından tanış olurlar. Yerli və xarici musiqiçilər, tamaşaçılar bir-biri ilə münasibət qurur, xalqlar arasında mədəni əlaqələrə töhfə verən qarşılıqlı təcrübə və yaradıcılıq söhbətləri aparırlar. Festival onu göstərir ki, Azərbaycan hər sahədə olduğu kimi, mədəniyyət və incəsənət sahəsində də dünyanı işıqlandıra bilər", - deyə Dmitri Yablonski bildirib.

Dünya şöhrətli violonçel ifaçısı azərbaycanlıların həmişə sülh, tərəqqi istəyən bir xalq olduğunu qeyd edərək deyib: "Bu festivalda bir çox xalqların musiqiçiləri iştirak edirlər. Biz istəyirik ki, dünyada insanlar sülh və əmin-amanlıq şəraitində yaşasınlar. Əminəm ki, Heydər Əliyev Fondunun uğurlu layihələrindən olan bu beynəlxalq musiqi festivalı hələ uzun illər keçiriləcək, Qəbələ dünyanın mədəniyyət mərkəzinə çevriləcək və burada ən gözəl klassik əsərlər sənətkarların canlı ifasında dinləniləcək".

# Azərbaycan və Ermənistan qoşunlarının qarşıdurma xəttində növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, avqustun 3-də Ağdam rayonu Orta Qərvənd kəndinin yaxınlığında yerləşən Azərbaycan və Ermənistan qoşunlarının qarşıdurma xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan Silahlı Qüvvələrinin nəzarət etdiyi ərazidə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi səfir Anjey Kasprşik və onun səhra köməkçisi Xristo Xristov keçirəcəklər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Jiri Aberle və Piter Şvedberq keçirəcəklər.

# Hərbi yeniliklər, ənənələr



## "Çirkli" bombaların aşkar edilməsi üçün texniki vasitə

Ukraynanın sərhəd qoşunları dövlət sərhədində qaçaqmalçılar tərəfindən radioaktiv nüvə və kimyəvi materialların daşınmasının qarşısını almaq məqsədilə xüsusi cihazın təqdimatını keçirib. Bu ölkənin sərhəd xidməti idarəsi beynəlxalq texniki yardım layihəsi çərçivəsində 12 min ədəd texniki vasitə əldə edib. Bunlar mobil radioloji kompleks, kimyəvi detektor, dozimetr, spektrometr, respirator və mühafizə geyim dəstidir. Bundan başqa inkişaf etmiş ölkələrə yardım üzrə Avropa komissiyasının nüvə təhlükəsizliyi departamenti tərəfindən sərhədçilərə radioaktiv materialların aşkar edilməsi üçün beş ədəd avtomatlaşdırılmış mobil kompleks də verib.

Hazırda terror təşkilatları "çirkli" bombalardan istifadə edirlər. ABŞ və tərəfdaş ölkələr tərəfindən bu təhlükəyə qarşı bir çox tədbirlər həyata keçirilir. Bu haqda Vasiliy Servatyuk məlumat verib.

"Triton" avtomobili tankəleyhinə minanın partlayışı zamanı heyəti mühafizə etməyə qadirdir. Sərhədçilər onun sınağını həyata keçiriblər. Burada "Triton" ilə birlikdə digər zirehli maşınların sınağı da həyata keçirilib. Bu vasitə gözlənilən təhlükənin qarşısını almaq, müşahidə aparmaq və sərhəd bölmələrinin mərkəzi idarəsinə informasiyaların ötürülməsi üçün nəzərdə tutulub. Maşın möhkəm zirehə malikdir. Sərhəddə vəziyyətə nəzarət etmək və müşahidə aparmaq üçün yerüstü kəşfiyyat kompleksi, radiolokasiya stansiyası və digər qurğularla təchiz olunub. "Triton" əlavə olaraq dizel generatoru, kondisioner sistemilə də təchiz edilib. Məlumatların ötürülməsi üçün "Triton"da peyk sistemi də quraşdırılıb.



## Qara Dəniz Donanmasının döyüş gəmiləri

2020-ci ilə qədər donanmanın tərkibinə əlavə 20 ədəd yeni təchizat gəmisi daxil ediləcək. Qara Dəniz Donanması Qara dənizdə Rusiyanın Hərbi Donanmasının operativ-strateji birləşməsidir. Bu donanmanın tərkibinə 277 gəmi və qayıqlar daxildir. Onlardan 49-u döyüş gəmisidir. Şəxsi heyəti isə 25 min hərbi qulluqçudan ibarətdir. 2015-ci ilin nəticələrinə görə, donanma 200 ədəd yeni silah, texnika və 40-a qədər müxtəlif təyinatlı gəmi və qayıq alıb. Onun sahil mühafizəsi isə 140 ədəd müasir avtozirehli tank texnikası ilə təchiz edilib.

Bu il donanmanın döyüş sırasına "Admiral Qriqoryeviç" gəmisi daxil edilib. "Admiral Essen" və "Admiral Makarov" gəmilərinin də donanmaya verilməsi planlaşdırılıb. Bu ilin martında suya beşinci dizel-elektrik "Dahi Novqorod" sualtı qayığı buraxılıb.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Bingöl vilayətində hərbi avtomobilin partladılması nəticəsində 5 nəfər ölüb



Türkiyənin Bingöl vilayətində PKK terrorçuları xüsusi təyinatlı polisləri daşıyan hərbi avtomobili partladıblar.

Partlayış yola əvvəlcədən basdırılmış bombanın işə salınması nəticəsində baş verib.

Bingöl valisi Yavuz Səlim Köşger partlayış nəticəsində 5 polisin şəhid olduğunu, 4 nəfərin isə ağır yaralandığını bildirib. Yaralananlar xəstəxanaya yerləşdiriliblər.

Əraziyə dərhal təhlükəsizlik qüvvələri cəlb olunub, araşdırmalar aparılır.

## Gürcüstanın yeni Müdafiə naziri təyin olunub



Gürcüstanın Müdafiə naziri vəzifəsinə Levan İzoriya təyin olunub. Bu barədə Tbilisidə keçirdiyi brifinqdə Baş nazir Georgi Kvirikaşvili məlumat verib.

Baş nazir barışıq və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət naziri vəzifəsinə isə Ketevan Tsixelaşvilinin təyin edildiyini diqqətə çatdırıb.

## Ermənistanda silahlı dəstə təslim olub



Ermənistanın Erebuni rayonunda post-patrul alayının binasını ələ keçirən silahlı dəstə hökumətə təslim olub.

Bu barədə məlumatı silahlı dəstənin üzvü Varujan Avetisyan yayıb.

O, bir neçə bəyanatla çıxış edib. Bildirib ki, onlar hərbi əməliyyatı dayandırırlar. Amma mübarizəni davam etdirəcəklər.

## Yəmənlə sərhəddə Səudiyyə Ərəbistanının 7 hərbçisi öldürülüb



Yəmənlə sərhəddə Səudiyyə Ərəbistanının 7 hərbçisi üsyançılarla (husilər) döyüşdə öldürülüb. Döyüş zamanı üsyançılar xeyli itki verib.

Bu barədə Yəmən hökumətini dəstəkləyən "ərəb koalisiyası"nın məlumatında bildirilir.

BMT-nin məlumatına görə, Yəməndə hərbi əməliyyatlar nəticəsində 6.4 mindən çox insan həlak olub, 30 mindən artıq insan isə yaralanıb.

## Rusiyaya məxsus hərbi helikopter Suriyada vurulub



Avqustun 1-də Suriyanın İdlib vilayətində Rusiya Federasiyasına məxsus Mi-8 tipli hərbi helikopter vurulub. Hadisə nəticəsində 3 ekipaj üzvü və Suriyada Barışıq üzrə Rusiya Mərkəzinin 2 zabiti həlak olub.

Hələb şəhərinə humanitar yardım aparmış hərbi-nəqliyyat helikopteri Xmeymim aviabazasına qayıdarkən yerdən açılan atəş nəticəsində vurulub.

**AZƏRTAC-ın materialları əsasında**

**Məsul katib**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Əbülfət QASIMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 447
Nüsxə 4650